# Sərhəddə yük nəqliyyat vasitələrinin sayı

## 1. Ümumi məlumat

**“Sərhəddə yük nəqliyyat vasitələrinin sayı”** elektron xidməti vasitəsilə yük nəqliyyat vasitələrinin sürücüləri ölkə ərazisini tərk edərkən gömrük-sərhəd keçid məntəqələrində gözləyən nəqliyyat vasitələri barədə əvvəlcədən məlumat əldə edə bilərlər.

Xidmət vasitəsilə istifadəçilər müxtəlif gömrük keçid məntəqələrində yaranmış sıxlıq vəziyyəti ilə tanış olur və alternativ keçid məntəqələrini seçərək vaxt itkisinin qarşısını ala bilirlər.

Xidmətdən istifadə etmək üçün portalın giriş səhifəsində yerləşən **“Asan Login”** (1) və ya **“Qeydiyyatsız xidmətlər”** (2) bölmələrindən birini seçə bilərsiniz (Şəkil 1).




*Şəkil 1. Portalın ana səhifəsində “Sərhəddə yük nəqliyyat vasitələrinin sayı” xidməti.*

## 2. Xidmətə giriş və axtarış

Portala “Elektron imza” vasitəsilə daxil olduqdan sonra “Əsas xidmətlər” menyusunun “Fiziki şəxslər üçün” bölməsindən “Sərhəddə yük nəqliyyat vasitələrinin sayı” elektron xidmətinə keçid edə bilərsiniz (Şəkil 1).

Elektron xidmətə daxil olduqdan sonra açılan pəncərədə:

- Azərbaycan Respublikasının qonşu ölkələrlə quru sərhədlərində yerləşən gömrük postları;
- Xəzər dənizi istiqamətində yerləşən gömrük keçid məntəqələri;
- Həmin postlar istiqamətində hərəkət edən yük nəqliyyat vasitələrinin sayı;
- Canlı növbədə gözləyən yük nəqliyyat vasitələrinin sayı barədə məlumatlar təqdim olunur (Şəkil 2).




*Şəkil 2. Sərhəd keçid məntəqələri üzrə məlumatlar.*

## 3. Ətraflı məlumat

Sistemdə hər bir gömrük postu üzrə:

- Posta istiqamətlənən yük nəqliyyat vasitələrinin sayı (1);
- Çıxış istiqamətində canlı növbədə gözləyən yük nəqliyyat vasitələrinin sayı (2);
- “Ətraflı” düyməsi (3) əks olunur.

“Ətraflı” seçimini etdikdə gözləmədə olan yük nəqliyyat vasitələrinin siyahısı cədvəl formasında təqdim edilir (Şəkil 3).




*Şəkil 3. Ətraflı məlumat*

Cədvəldə aşağıdakı məlumatlar göstərilir:

- **“Avtomobil nömrəsi”** sahəsində yük nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı;
- **“Növbədə sırası”** sahəsində nəqliyyat vasitəsinin növbə üzrə sıra nömrəsi;
- **“Status”** sahəsində isə yük nəqliyyat vasitəsinin gömrük postundan keçmə vəziyyəti əks olunur.

Sistem tərəfindən aşağıdakı statuslardan istifadə edilir:

- **“GOTOGATE”** — yük nəqliyyat vasitəsinin gömrük postunda qeydiyyatdan keçdiyini bildirir;
- **“WAITING”** — yük nəqliyyat vasitəsinin canlı növbədə gözlədiyini göstərir.

## 4. Rəy və təkliflər

**“Rəy və təkliflər”** bölməsi vasitəsilə xidmətlə bağlı rəy və təkliflərinizi göndərə bilərsiniz.




*Şəkil 4. “Rəy və təkliflər” bölməsi.*

✓ **Qeyd:** Portalın ana səhifəsində **“Rəy və təkliflər”** bölməsinə daxil olaraq müvafiq gömrük orqanını və ya xidmət sahəsini seçib rəy və ya təklifinizi göndərə bilərsiniz.

Sistemdən çıxarkən **“Çıxış”** ikonundan istifadə etməyi unutmayın (Şəkil 4).

**MƏQSƏDİMİZ MƏMNUNİYYƏTİNİZDİR!**